SƏHMDARLARIN NÖVBƏDƏNKƏNAR ÜMUMİ YIĞINCAĞININ KEÇİRİLMƏSİ BARƏDƏ BİLDİRİŞ

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsini rəhbər tutaraq, "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – "PAŞA Bank" ASC) İdarə Heyəti nəzərinizə çatdırır ki, 16.11.2026-cı il tarixində Bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı (bundan sonra – Ümumi Yığıncaq) keçiriləcəkdir.

Bununla yanaşı bildiririk ki, "PAŞA Bank" ASC-nin nizamnaməsinə uyğun olaraq səsvermənin qiyabi şəkildə, Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən İnvestor Portalında (invp.e-mdm.gov.az) yaradılmış şəxsi kabinet vasitəsilə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxili edilir:

1. Yığıncağın sədrinin və katibinin seçilməsi;
2. Bank tərəfindən emissiya edilmiş səhmlərin kütləvi təklif üsulu ilə yerləşdirilməsinin ("IPO") yekunları nəzərə alınmaqla Bankın nizamnamə kapitalının artırılması, bununla əlaqədar nizamnaməyə müvafiq dəyişikliyin edilməsi;
3. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nizamnaməyə dəyişikliyin edilməsinə razılıq verilməsi üçün Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət edilməsi;
4. Bankın nizamnaməsinə ediləcək dəyişikliyin imzalanması səlahiyyətinin, səhmdarların ümumi yığıncağının qərarın icrası ilə bağlı bütün zəruri addımların atılması, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə müraciət edilməsi, bütün dövlət və qeyri-dövlət orqanları qarşısında "PAŞA Bank" ASC-nin təmsil edilməsi, bütün zəruri sənədlərin imzalanması, müraciətlərin edilməsi səlahiyyətinin "PAŞA Bank" ASC-nin İdarə Heyətinin Sədri Quliyev Cavid Həsən oğluna həvalə edilməsi.

Ümumi yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə müvafiq materiallar və səsvermə bülleteni 19.10.2026-cı il tarixindən etibarən hər bir səhmdar üçün Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən İnvestor Portalında yaradılmış şəxsi kabinetində yerləşdiriləcəkdir (invp.e-mdm.gov.az).

Gündəlikdə olan məsələlərə dair münasibətiniz şəxsi kabinet vasitəsilə 19.10.2026-cı il tarixindən 15.11.2026-cı il tarixinədək etibarən elektron qaydada bildirməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz.

Səslərin sayılması ümumi yığıncağın keçirildiyi gün (16.11.2026-cı il tarixində) həyata keçiriləcəkdir.

Hörmətlə,
"PAŞA Bank" ASC-nin İdarə Heyəti